


# Azərbaycan öz ərazisində hər hansı bir qanunsuz silahlı birləşmənin mövcudluğuna heç vaxt yol verməyəcək

**Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən məğlubiyyətə düçar olan işğalçı Ermənistan 10 noyabr 2020-ci il tarixli Bəyanatı imzalamağa məcbur oldu. Bu Bəyanatın imzalanması Ermənistanın hərbi kapitulyasiyası olmaqla Azərbaycanın qələbəsini rəsmiləşdirdi.**

Bəyanata əsasən, Ermənistan tərəfi məhv edilmiş işğalçı ordusunun qalıqlarını Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindən çıxarmalı idi. Amma üstündən bu qədər vaxt keçməsinə baxmayaraq, Bəyanatın müddəalarını pozmaqda davam edir. Həmin qanunsuz silahlı ünsürlər mütəmadi olaraq terror təxribat əməlləri törədir, günahsız insanların ölümünə səbəb olurlar. Azərbaycan tərəfi bu barədə Ermənistana dəfələrlə xəbərdarlıq etsə də görünən odur ki, Ermənistan imza atdığı sənədlərə məhəl qoymaq niyyətində deyil.

Avqustun 3-də Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri növbəti dəfə terror-təxribat əməli törətmiş və nəticədə əsgər Anar Kazımov şəhid olmuşdur. Həmçinin, onlar Kəlbəcər və Laçın rayonlarında əlverişli mövqeləri ələ keçirməyə cəhd etmişlər. Təbii ki, Azərbaycan Ordusu düşmənin cavabını vermişdir. Bu, onu göstərir ki, Azərbaycan öz ərazisində hər hansı bir qanunsuz silahlı birləşmənin mövcudluğuna heç vaxt yol verməyəcək. Ermənistan tərəfi də bunu mütləq anlamalı, üzərinə götürdüyü öhdəlikləri tərəddüdsüz yerinə yetirməlidir. Və anlamalıdır ki, onların qarşısında qüdrətli, regionun lider dövləti Azərbaycan var.

Münaqişə başa çatandan sonra aparılan bütün danışıqlarda Azərbaycanın səyləri bötövlükdə regionda sülh və təhlükəsizliyə, sabitliyin əldə olunmasına hesablanıb. Dövlətimiz tərəfindən irəli sürülən təkliflər ümumilikdə bölgənin iqtisadi inkişafını ehtiva edir. Ermənistan tərəfi isə sülh prosesini ləngitməklə əslində özünü çətin duruma salır, regionun hərtərəfli inkişafına mane olmağa çalışır. Baş verən son hadisələr bir daha təsdiqləyir ki, Ermənistan iki dövlət arasında münasibətlərin normallaşmasını istəmir, beynəlxalq hüququn norma və prinsiplərinə hörmətsizlik edir.

**Səttar MÖHBALIYEV,**
**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri,**
**Milli Məclisin deputatı.**

**Respublika.- 2022- ci il.- 5 avqust.- S. 2.**